# 2025-Cİ İLDƏ KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN TƏDBİRLƏR

| | |
|---|---|
| **4 iyun** | Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının, YAP Nizami rayon təşkilatının, Nizami Rayon İcra Hakimiyyətinin və “Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı” İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Qurtuluş məfkurəsi: konstitusion quruluşdan suverenlik zirvəsinə” mövzusunda konfrans keçirilmişdir. |
| | |
| **1 iyun** | Uşaq Səfirlər Məclisinin Cəbrayıl rayonu üzrə nümayəndəsi Aynur Məmmədovanın təşəbbüsü, Cəbrayıl Rayon İcra Hakimiyəti və Mədəniyyət nümayəndəliyinin dəstəyi ilə "Konstitusiya və Suverenlik ili" çərçivəsində "1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü"nə həsr olunmuş “Biz Qalib ölkənin uşaqlarıyıq" adlı tədbir keçirilmişdir. |
| **27 may** | Milli Məclisdə 28 May - Müstəqillik Günü ərəfəsində “Konstitusiya və Suverenlik İli” çərçivəsində Qarabağ Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri ilə görüş keçirilmişdir. Görüş "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunmuşdur;<br><br>“Konstitusiya və Suverenlik İli” çərçivəsində Qəbələ şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə “Milli suverenlik və hüquqi təminatlar: Prokurorluğun rolu” mövzusunda regional konfrans keçirilmişdir. |
| **25 may** | 28 May - Müstəqillik Günü və 2025-ci ilin Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan edilməsi çərçivəsində İstanbulun Halkalı Hayha Kemal Beyatlı Göstəri Mərkəzində möhtəşəm konsert proqramı təşkil edilmişdir. Tədbir Azərbaycan Diasporuna Dəstək Fondu və Azərbaycan-Türkiyə Dərnəkləri Federasiyasının (TADEF) təşkilatçılığı, İstanbulun İFA idman klubunun dəstəyi ilə baş tutmuşdur. |

| | |
|---|---|
| **24 may** | Qars valiliyi və bələdiyyəsinin, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin, ölkəmizin Qarsdakı baş konsulluğunun, Türk-Azərbaycan İcmaları Federasiyasının (TADEF) və ölkəmizin Ankaradakı səfirliyinin yanında fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Qars Şəhər Mədəniyyət və Turizm İdarəsinin konsert zalında Azərbaycanın “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş konsert və milli geyimlərin nümayişi olmuşdur;<br><br>“Konstitusiya və Suverenlik ili” çərçivəsində Yekaterinburq şəhərində Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğunun təşkilatçılığı, “Azərbaycan–Ural” İctimai Milli-Mədəni Təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) Sverdlovsk vilayətindəki nümayəndəliyinin dəstəyi ilə azərbaycanlı tələbələr arasında peşəkar əsasda viktorina təşkil olunub. |
| **20 may** | Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində Xol Qaraqaşlı kənd tam orta ümumtəhsil məktəbində “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda maarifləndirici tədbir keçirilib. |
| **13 may** | “Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) tərəfindən aztəminatlı və həssas əhali qruplarına yönəlmiş sosial hüquqi aksiyalar keçirirlər. ARVK-nın və Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Zərdab rayonunda vətəndaşlara pulsuz hüquqi yardım göstərilmişdir. |
| **9 may** | Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında “Konstitusiya və Suverenlik İli” çərçivəsində Ulu öndər Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş konsert proqramı təşkil edilib |

| | |
|---|---|
| **8 may** | Azərbaycan Respublikası Milli Məclisinin “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusuna həsr olunmuş xüsusi iclası keçirilib. İclas “Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilmişdir;<br><br>Azərbaycan Respublikasının Milli Məclisi 2025-ci il mayın 8-də keçirilən xüsusi iclasında “Konstitusiya və Suverenlik İli” ilə bağlı bəyanat qəbul edib. |
| **7 may** | May ayının 7-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının (Akademiya) təşkilatçılığı ilə DTX-nin Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Heydər Əliyevin dövlət təhlükəsizlik siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar” mövzusunda respublika elmi-praktiki konfransı keçirilmişdir. |
| **5 may** | Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Sumqayıt şəhər təşkilatının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Böyük Qayıdış: Hədəfləri reallığa çevirən məqsədyönlü strategiya” mövzusunda tədbir keçirilib. |
| **3 may** | Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan olunması çərçivəsində Qazaxıstanın Aktau şəhərində beynəlxalq konfrans keçirilib. Tədbir Azərbaycanın Aktau şəhərindəki Baş Konsulluğu, Ş.Yessenov adına Xəzər Texnologiya və Mühəndislik Universiteti, həmin universitetdə fəaliyyət göstərən “Azərbaycan Mərkəzi”nin təşəbbüsü və Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin, yerli diaspor təşkilatlarının dəstəyi ilə baş tutub. |
| **30 aprel** | Naxçıvanda “Konstitusiya və Suverenlik İli” və 25 aprel - Sahibkarlar Gününə həsr olunmuş “Konstitusiya və suverenlik – Naxçıvanda sahibkarlığın inkişafı” mövzusunda tədbir keçirilib; |

| | |
|---|---|
| | Qaradağ rayonu Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə təşkil edilmiş “Konstitusiya və Suverenlik İli” adlı hüquq olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib;<br><br>Tovuz Rayon İcra Hakmiyyətinin, Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatının və rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan konstitusiyasının müəllifidir” mövzusunda tədbir keçirilib. |
| **23 aprel** | Bakı Dövlət Universitetinin Qazax filialında "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müasir Azərbaycanın Demokratik Hüquqi Əsasları - Konstitusiyamız" mövzusunda "Nə? Harada? Nə zaman?" intellektual yarış keçirilmişdir. |
| **22 aprel** | Hüquq və İnsan Haqları İnstitutu “Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə birgə bir sıra media qurumlarının nümayəndələri üçün məlumat sessiyası təşkil etmişdir. “Konstitusiya ali hüquqi sənəd kimi: Əsas insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında təminatı” mövzusunda keçirilən tədbirdə 27 media nümayəndəsi iştirak edib;<br><br>“Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır” mövzusunda tədbir keçirilib. |
| **21 aprel** | AMEA-nın Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Hüquqi dövlətin təməli: konstitusiya və suverenlik” mövzusunda elmi konfrans keçirilib. |

| | |
|---|---|
| **18 aprel** | AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Milli mübarizəmizin məntiqi nəticəsi - Konstitusiya və Suverenlik" mövzusunda respublika konfransı keçirilib;<br><br>Daşkəsən Rayon İcra Hakimiyyətinin, Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin və Daşkəsən rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı Daşkəsəndə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş intellektual yarış keçirilib |
| **15 aprel** | Gəncə şəhər İcra Hakimiyyəti və AMEA-nın Gəncə Bölməsi tərəfindən "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Konstitusiya və Suverenlik ili" milli istiqlal uğrunda tarixi mübarizəmizə töhfədir adlı dəyirmi masa keçirilib. |
| **14 aprel** | Baş Prokurorluğun və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Ulu Öndər Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda konfrans keçirilib; Samuxda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qərbi Azərbaycanın tarixi, deportasiyalar və qayıdış prioritetləri" adlı tədbir keçirilib. |
| **9 aprel** | Səbail Rayon İcra Hakimiyyətində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Milli yaddaşın suverenliyə çağırışı - soyqırımı və Qərbi Azərbaycan həqiqətləri" mövzusunda panel iclas keçirilib. |
| **18 mart** | Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Konstitusiyamız və Suverenliyimiz - dövlətimizin təhlükəsizliyinin qarantıdır" mövzusunda konfrans keçirilib. |
| **11 mart** | Mingəçevir Gənclər Evində Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində dəyirmi masa keçirilib. Görüşdə şəhərin müxtəlif təşkilatlarının, idarə və müəssisələrinin nümayəndələri iştirak ediblər. |

| | |
|---|---|
| **5 mart** | Bakıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib;<br><br>Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Bəsirətin Zəfəri" mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində Milli Məclisin deputatı Samir Vəliyevin "Bəsirətin Zəfəri" kitabının təqdimatı da olmuşdur. |
| **3 mart** | Göygöl Rayon İcra Hakimiyyəti, Heydər Əliyev Mərkəzi, Gənclər Evi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rayondakı müəssisələri və təhsil işçilərinin birgə iştirakı ilə Göygöldə "Hüquqi dövlət və demokratiya" mövzusunda "dəyirmi masa" keçirilmişdir. |
| **26 fevral** | Naxçıvan Hərbi Kollecinin və Naxçıvan Hərbi Prokurorluğunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Vətənə sədaqət müqəddəsdir" və "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" mövzularında tədbir keçirilmişdir. |
| **25 fevral** | Qərbi Azərbaycan İcmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və İcmanın birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qərbi Azərbaycan əsilli gənclər: Tarixi yurd və ərazinin milli kimlik məsələlərində yeri" adlı konfrans keçirilib. |
| **20 fevral** | Bakı Dövlət Universiteti (BDU), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə Dövlət Komitəsi (AQUPDK) və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qızların təhsil hüququ" mövzusunda konfrans keçirilmişdir. |
| **19 fevral** | Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) "Konstitusiyada dini etiqad azadlığı" mövzusunda seminar keçirilmişdir. Seminar |

| | |
|---|---|
| | Azərbaycan Respublikası Prezidentinin 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Sərəncamına uyğun olaraq təsdiqlənmiş tədbirlər planına əsasən baş tutmuşdur. |
| **18 fevral** | "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Beynəlxalq Osmanlı Tədqiqatları Komitəsinin birgə təşkil etdiyi "Milli mənsubiyyət hüququnun konstitusion əsasları və tarixi aspektləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. |
| **15 yanvar** | Ağstafa Rayon İcra Hakimiyyəti, Qazax-Tovuz Regional Təhsil İdarəsinin rayon üzrə təhsil sektoru və "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun birgə təşkilatçılığı ilə Ağstafa rayonunun ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hərbi hazırlığı və fiziki tərbiyə müəllimlərinin iştirakı ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü" adlı intellektual yarış keçirilmişdir. |
| **14 yanvar** | Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, ADA Universiteti, Almaniyanın Martin Lüter adına Halle Vittenberq Universitetinin təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun və Ədliyyə Könüllüləri İctimai Birliyinin dəstəyi ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində təşkil edilən “Lex Camp” - qış düşərgəsinin açılış mərasimi keçirilib. |